# Qərbi azərbaycanlıların qayıdış hüququ humanizmin və ədalətin təsdiqidir



***Qərbi azərbaycanlıların əzəli torpaqlarından qovulması Ermənistanın etnik təmizləmə siyasətinin tərkib hissəsidir. Yaşanmış faciələr vətənindən, evindən məhrum edilmiş minlərlə insanın hələ də qaysaq bağlamayan yaralarıdır.***

Bir vaxtlar indiki Ermənistan ərazisi yüz minlərlə azərbaycanlının vətəni olub. Dağ silsilələri ilə əhatə olunmuş, mavi göllərlə bəzənmiş bu torpaqlar əsrlər boyu Azərbaycan mədəniyyətinin beşiyi kimi tanınıb.

**(davamı 8-ci səhifədə)**

**XX əsrin bəlası - Deportasiya**

(əvvəli 1-ci səhifədə)

Həmyerlilərimizə qarşı həyata keçirilmiş etnik təmizləmə beynəlxalq hüququn əsas prinsiplərinə ziddir. Bütöv bir xalqın vətən hüququndan məhrum edilməsi, onun mədəni və tarixi irsinin məhv edilməsi qətiyyətlə pislənməli və qarşısı alınmalıdır. Beynəlxalq sənədlər azərbaycanlıların öz torpaqlarına qayıtmaq hüququnu birmənalı şəkildə təsdiq edir. Cenevrə Konvensiyası mülki əhalinin zorla köçürülməsini qadağan edir. Azərbaycanlıların deportasiyası bu prinsipin açıq-aşkar pozulmasıdır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi hər bir insanın öz ölkəsinə qayıtmaq hüququnu təsdiqləyir. BMT-nin qətnamələri deportasiya edilmiş şəxslərin geri qayıtmaq, vətəndaş hüquqlarını bərpa etmək və əmlaklarını geri almaq hüquqlarını təsbit edir.

Qərbi azərbaycanlıların hüquqlarının bərpası və tarixi ədalətsizliyin aradan qaldırılması üçün beynəlxalq hüquq tətbiq olunmalıdır. Qərbi Azərbaycan İcması deportasiya edilmiş yüz minlərlə azərbaycanlını təmsil edir. Qurum sadəcə bir təşkilat deyil - bu, ata-baba torpaqlarına qayıtmaq ümidi və ədalət rəmzidir. Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması üçün sistemli iş aparılır. İcma əzəli torpaqlarından didərgin düşmüş həmyerlilərimizin hüquqlarının bərpa olunması istiqamətində beynəlxalq çağırışlar edir, bəyanatlar səsləndirir. Qərbi Azərbaycan İcması dekabrın 16-da verdiyi bəyanatda BMT-nin İrqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsində ekspertlərin Azərbaycanla bağlı səsləndirdikləri fikirləri təqdirəlayiq hesab etdiyini bildirib.

Bəyanatda deyilir: *"...Ermənistanın işğal dönəmində Yuxarı Gövhər ağa məscidinin Azərbaycan xalqına məxsusluğunu inkar etməsi siyasəti tam uğursuzluğa düçar olduğu kimi, Göy məscidin də Azərbaycan mənşəyini danmasının heç bir perspektivi yoxdur. Nə Ermənistan rəsmilərinin BMT kürsülərindən isterik cavabları, nə də Fransanın Ermənistandakı irqçi səfirinin gülünc tvitləri, "atmaca"ları Azərbaycan xalqının qədim tarixini, zəngin mədəni irsini, izini silə bilməz.*

*Komitənin Ermənistana "Azərbaycan və Ermənistan kontekstində mediada və internet məkanında rəsmilərin və siyasətçilərin nifrət dolu çıxışlarından narahatlıq ifadə etməsi" ilə bağlı verdiyi tövsiyəsini Ermənistanın azərbaycanlılara qarşı yürütdüyü irqçi siyasətin BMT tərəfindən qeydə alınması kimi qiymətləndiririk. Bu xüsusda, BMT ekspertlərini Ermənistanda azərbaycanofobiya problemini diqqətdə saxlamağa, bu ölkədə medianı, internet məkanını daim monitorinq etməyə çağırırıq. Biz, eyni zamanda BMT-nin digər aidiyyəti qurumlarını Ermənistanla bağlı müzakirələr zamanı Qərbi azərbaycanlıların pozulmuş hüquqlarına toxunmağa və bu ədalətsizliklərin aradan qaldırılması üçün Ermənistana tövsiyələr verməyə dəvət edirik".*

Məsələnin beynəlxalq müstəviyə çıxarılması Ermənistanı ciddi şəkildə narahat edir. Amma onların nə deməsindən asılı olmayaraq, Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı mütləq gerçəkləşməlidir. Qərbi Azərbaycan İcması BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara müraciətlər edib. Bu müraciətlərin bir neçəsi BMT-nin rəsmi sənədi kimi yayılıb. Lakin Ermənistanın BMT-nin Nizamnaməsi daxil olmaqla müvafiq beynəlxalq hüquqi sənədlərə qoşulması bu ölkənin üzərinə onun ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə sülh yolu ilə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaradılması, onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur.

Bütün bunların fonunda Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması üçün fəaliyyət genişləndirilir. Dekabrın 12-də Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının (QAİ) Türkiyə ofisinin açılışı da bu faktın göstəricisidir. Qərbi Azərbaycan İcmasının Türkiyə təmsilçisi Asif Qurban bunun İcmanın Azərbaycandan kənarda açılan ilk ofisi olduğunu bildirib və Türkiyədə sayı təxminən 1,5 milyon nəfər olan Qərbi Azərbaycan əsilli şəxsləri ətrafında birləşdirmək, bu insanların tarixi vətənlərinə ləyaqətli qayıdış hüququnu təşviq etmək məqsədi daşıdığını deyib. O, yeni yaradılan ofisin qarşısında duran vəzifələr, həyata keçirilməsi nəzərdə tutulan akademik konfranslar, simpoziumlar və digər fəaliyyət istiqamətləri barədə məlumat verib.

Qeyd edək ki, Qərbi Azərbaycan İcmasının Türkiyə ofisinin rəhbəri, əslən Qərbi Azərbaycanın Hamamlı mahalının Saral kəndindən olan Asif Qurban 31 ildir ki, İzmirdə yaşayır və bir çox qeyri-hökumət təşkilatlarına rəhbərlik edib. Nümayəndəliyin fəaliyyət istiqamətləri arasında Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında ictimaiyyəti məlumatlandırmaq, ardıcıl şəkildə Qərbi Azərbaycandan deportasiya olunan 300 mindən çox soydaşımızın beynəlxalq səviyyədə haqq və hüquqlarının bərpa olunması istiqamətində beynəlxalq təşkilatlarla iş sistemini gücləndirmək kimi məsələlər yer alır.

Tarix deportasiya edilmiş xalqların öz torpaqlarına qayıtmasının çoxsaylı nümunələrini tanıyır. Bu presedentlər hüquqların bərpasının beynəlxalq səviyyədə tanınma və əməkdaşlıq yolu ilə mümkün olduğunu göstərir.

1948-ci ildə İsrail dövlətinin yaradılması yəhudi xalqının vətənə qayıtmaq üçün əsrlərlə davam edən mübarizənin nəticəsi idi. Keçmiş SSRİ-də repressiyaya məruz qalan xalqlar, Krım tatarları, inquşlar və çeçenlər imperiyanın dağılmasından sonra öz torpaqlarına qayıtmaq imkanı əldə etdilər. SSRİ-nin dağılmasından sonra bir çox xalq siyasi islahatlar və beynəlxalq dəstək sayəsində öz tarixi torpaqlarına qayıda bildi. 1975-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində qəbul edilmiş Helsinki Aktı sərhədlərin toxunulmazlığı prinsipini təsbit edir, lakin sərhədlərin sülh yolu ilə dəyişdirilməsi tərəflərin razılığı ilə mümkündür. Habelə xalqların öz müqəddəratını təyinetmə və tarixi yaşayış yerlərinə qayıtma hüququ da var. Bu nümunələr göstərir ki, hətta onilliklər keçdikdən sonra belə, siyasi iradə və beynəlxalq dəstəklə ədalət bərpa oluna bilər. Deportasiya məruz qalmış xalqların hüquqlarının bərpası sadəcə humanizm aktı deyil, həm də ədalətə doğru vacib addımdır.

Hüquqi presedent: Bu qətnamə beynəlxalq hüquq normalarının qayıtmaq hüququnu qoruduğunu göstərir ki, bu da Ermənistandan deportasiya edilmiş azərbaycanlılara tətbiq oluna bilər.

# Qərbi azərbaycanlıların qayıdış hüququ humanizmin və ədalətin təsdiqidir




Bundan əlavə, Avropa İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiya (1950) hər bir insanın fundamental hüquqlarını qoruyur. Deportasiya edilmiş azərbaycanlılar üçün bu sənədin 1-ci və 8-ci maddələri xüsusi əhəmiyyət daşıyır. Belə ki, 1-ci protokolun 1-ci maddəsində deportasiya nəticəsində itirilmiş əmlakın restitusiya hüququ təsbit edilir. Sənədin 8-ci maddəsi tarixi yaşayış yerləri ilə əlaqənin qorunmasını əhatə edən şəxsi və ailə həyatına hörmət hüququnu təmin edir. Bu maddələr azərbaycanlıların qayıtmaq, əmlakını və vətəndaş hüquqlarını bərpa etmək hüququnu təsdiqləyir.



Qərbi Azərbaycana qayıdışın reallaşması ədalətin bərpası olmaqla yanaşı, beynəlxalq hüquqa inamı möhkəmləndirəcək və Cənubi Qafqazda barışın təməlini qoyacaq. Beynəlxalq ictimaiyyət bu prosesi uğurlu presedentlər və hüququn universal prinsipləri əsasında dəstəkləməlidir. BMT-nin Yerli Xalqların Hüquqları haqqında Bəyannaməsi (2007) xalqların mədəniyyətini, ənənələrini və tarixi torpaqlarla əlaqələrini qorumaq hüququnu müdafiə edən əsas sənədlərdən biridir. Qərbi azərbaycanlılar üçün bu bəyannamə yeni hüquqi imkanlar açır. Sənəd zorakı hərəkətlər nəticəsində itirilən torpaqlara qayıtmaq hüququ verir, mülkiyyət hüquqlarının bərpası və ya itirilmiş ərazilər üçün kompensasiyanı ehtiva edir və yerli xalqlara aid ənənələrin, institutların və abidələrin qorunmasının vacibliyini nəzərdə tutur. Bəyannaməyə əsasən onlar qayıtmaq, həm də öz kimliklərini qorumaq hüququna malikdirlər. Bu sənədlər Qərbi Azərbaycandan deportasiya edilmiş azərbaycanlılara tətbiq olunan universal hüquqi normaları təsbit edir.

Qayıtmaq hüququnun reallaşdırılması humanizm və ədalət dəyərlərini təsdiqləyən faktor olacaq, eyni zamanda bölgənin tarixində yeni bir səhifə açacaq, burada sülh və əmin-amanlıq keçmişdəki ağrı və itkiləri əvəz edəcək.

**Bayram SALMANOV,**
**"Respublika".**